# BAKI VƏ ABŞERON YARIMADASININ YAŞILLAŞDIRILMASI HAQQINDA

**Əlisahib Hüseynli**

*AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında*
*Meşələrin İnkişafı Xidməti, Bakı*
*alisahib1013@gmail.com*

Yer kürəsində mövcud olan təxminən 4 milyard ha meşə sahələri planet ərazisində qeyri-bərabər paylanmışdır. Geoloji-tarixi dövrlərdə ən müxtəlif qurşaqlarda fərqli bitmə şəraitlərinə uyğun meşə tipləri formalaşmış, hər meşə tipinə aid də sabit biosenozlar yaranmış və dinamik inkişaf etmişdir.

Bir tərəfdən əhali artımı, kənd təsərrüfatının müxtəlif təsirləri, sənayenin sürətli inkişafı, digər tərəfdən də ətraf mühitin çirklənməsi meşə ekosistemlərinin sahəsinin azalması və deqradasiyası ilə müşayiət olunmaqdadır. Belə ki, son  iki əsrdə planet meşələrinin sahəsi əhəmiyyətli dərəcədə azalmış və bu tendensiya hazırda da davam edir.

Meşə ekosisteminin istər cəmiyyət, istərsə də təbiət üçün əhəmiyyəti olduqca vacibdir. Belə qiymətli sərvətin getdikcə azalması isə yaxın gələcək üçün yaxşı heç nə vəd etmir. Qeyd etmək yerinə düşər ki, hər il dünyada avtomobil parkı təxminən 2,5 milyard ton müxtəlif növ yanacaq və 25 milyard tondan çox hava işlədir ki, nəticədə atmosferə 430 milyon tondan çox dəm qazı (CO), 200 milyon tondan çox müxtəlif tərkibli karbohidrogen birləşmələri, həmçinin 70 milyon tondan çox azot oksidi və s. atılır. Bu itkinin də qarşısını okean və yaşıl yarpaq səthi kompensasiya edir. Yaşıl yarpaq səthinin dünya okeanı səthindən 2,5 dəfə böyük olduğunu nəzərə alsaq, meşə və yaşıllıqların əhəmiyyəti daha dəqiq məlum olur. Ölkəmizin az meşəli ərazidə yerləşməsi, əhalinin artım dinamikası fonunda sənaye, kənd təsərrüfatı məhsulları, inşaat, qida, ərzaq və s məhsullara  artan tələblər və həmçinin ətraf mühitə atılan tullantıların miqdarınn durmadan çoxalması fonunda meşə və yaşıllıqların əhəmiyyəti dövlət və cəmiyyət qarşısında həmişə öz aktuallığını saxlamışdır.

Quru subtropik iqlimə malik Abşeron yarımadasında yerləşən Bakı şəhəri XIX əsrin sonlarından böyüməyə və inkişaf etməyə başlamışdır. Orta əsrlər və hətta XX əsrin əvvəllərinə qədər Bakı və ətraf ərazilər yaşıllıq cəhətdən olduqca ekstremal vəziyyətdə olmuşdur. Zaman keçdikcə neft sənayesinin sürətli inkişafı, liman, paytaxt şəhəri olması və s. səbəblərdən Bakı və ətraf ərazilərdə əhali artımı və infrastruktur inkişafı geniş vüsət almağa başlamış və bu ümumi inkişafın fonunda ərazinin yaşıllaşdırılma işləri də canlanmağa başlamışdı. Belə ki, 1880-ci ildə Bakı və ətraf ərazilərdə 3,02 ha yaşıllıq olduğu halda, 1920-ci ildə bu rəqəm 20,25-ə çatmış, adambaşına düşən yaşıllıq sahəsi 0 dan 0,6 $m^2$-ə yüksəlmişdir. 1950-ci ildə Bakı və ətraf ərazilərdə bütün kateqoriyalardan olan yaşıllıq sahəsi 594,8 ha, adambaşına isə 3,10 $m^2$, 1960-cı ildə isə 1160 ha sahə artırılaraq adambaşına düşən yaşıllıq sahəsi 4,20 $m^2$-ə çatdırılmışdır.

Bakı və Abşeron yarımadasının yaşıllaşdırılmasının inqilabi və qızıl dövrü Ümummilli Lider H.Əliyevin respublikaya rəhbərlik etdiyi dövrləri əhatə edir. Belə ki, 1970-ci ildə 2980 ha ərazidə yaşıllıq

işləri aparılaraq, adambaşına düşən yaşıllıq sahəsi 6,5 $m^2$, illik artım 2,30 $m^2$ olmuşdur. 1974-cü ildə əlavə ərazilər yaşıllaşdırılmış və hər sakinə düşən yaşıl sahə artıq 13 $m^2$-ə çatdırılmışdır (illik artım 5,5 $m^2$). Artıq 1982-ci ildə Bakı şəhərində adambaşına düşən yaşıllıq sahəsi 23 $m^2$-ə çatdırılmışdır. Həmin illərdə Bakı və ətraf ərazilərdə yaşayan əhali artımını da nəzrə alsaq, işlərin nə qədər mürəkkəb şəraitdə yerinə yetirildiyi məlum olar. Müqayisə üçün qeyd etmək lazımdır ki, həmin illərdə adambaşına düşən yaşıllıq sahəsi Nyu-Yorkda 6,7, Parisdə 3,6, Londonda 8, Romada 6,4, Tokioda 1,1, Moskvada 20 $m^2$ təşkil edirdi.

Onu da xüsusilə qeyd etmək lazımdır ki, Abşeron yarımadasının əlverişsiz torpaq-iqlim şəraitinə görə əvvəlki illərdə Bakı və ətraf ərazilərin yaşıllaşdırılmasında əsasən tut, əncir, zeytun kimi quraqlığa davamlı cinslərdən daha geniş istifadə edildiyi halda, artıq bu illər ərzində eldar şamı, həmişəyaşıl sərv, daş palıd, tuya, ərik, iydə, göyrüş, qarağac, ağcaqayın, badam, maklyura, qovaq, evkalipt, nar, oleandr, ölməzkol, dovşanalması və s. bitkilərdən istifadə etməklə yaşıllıqların cins tərkibi getdikcə zənginləşdirilirdi.

Beləliklə də, Bakı və ətraf ərzilərdə həmin illərdə aparılmış yaşıllaşdırma işləri həm Bakının sanitar-gigiyenik vəziyyətini yaxşılaşdırmış, həm də onu ən gözəl şəhərlərdən birinə çevirmişdir.